

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 19 (23.906)

29 yanvar 2022-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanı videoformatda qəbul edib.

Prezident İlham Əliyev Azərbaycanla Ümumdünya Gömrük Təşkilatı arasında səmərəli əməkdaşlığı və təşkilatın ölkəmizə göstərdiyi dəstəyi qeyd edərək, Kunio Mikuriya ilə əvvəllər keçirdiyi görüşləri və aparılmış müzakirələri məmnunluqla xatırlayıb. Dövlətimizin başçısı Ümumdünya Gömrük Təşkilatının Baş katibinin Azərbaycanla əməkdaşlığı daim diqqət mərkəzində saxlamasını yüksək qiymətləndirdiyini, təşkilatın dəyərli tövsiyə və məsləhətlərinin ölkəmizdə bu sektorun inkişafına töhfə verdiyini diqqətə çatdırıb.

Baş katib Kunio Mikuriya rəhbərlik etdiyi təşkilatın Azərbaycanda gömrük sahəsində aparılan islahatlara dəstəyinin davam edəcəyini vurğulayaraq, Azərbaycanın regional inkişaf və nəqliyyat qovşağı mərkəzinə çevrildiyini, regional əməkdaşlıq, insanlararası təmaslar və nəqliyyat bağlantılarının inkişafı üçün əlverişli imkanlar yaratdığını qeyd edib.

Prezident İlham Əliyev ölkəmizin əlverişli coğrafi mövqeyi, infrastruktura yatırılmış investisiyalar, qonşu dövlətlərlə qurulmuş əlaqələr sayəsində Azərbaycanın regionun nəqliyyat-logistika mərkəzinə çevrildiyini bildirib və regional bağlantıların əməkdaşlıq üçün əlverişli mühit yaratdığını diqqətə çatdırıb. Görüşdə Azərbaycan ilə Ümumdünya Gömrük Təşkilatı arasında əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Dövlət proqramı icra olunur

## Dövlət proqramının icrası davamlı sosial-iqtisadi inkişaf üçün möhkəm zəmin yaradır

***Naxçıvan Muxtar Respublikasında həyata keçirilən sosial-iqtisadi inkişaf tədbirlərinin davamlı xarakter almasında icrası uğurla reallaşdırılan Dövlət proqramlarının əvəzolunmaz rolu vardır. Bu proqramların icrası istiqamətində görülən işlər Naxçıvanda rəqabətqabiliyyətli məhsul istehsalının genişləndirilməsinə, müxtəlif təyinatlı infrastruktur obyektlərinin yaradılmasına, yeni iş yerlərinin açılmasına və əhali rifahının daha da yaxşılaşdırılmasına xidmət edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın da əsas məqsədi muxtar respublikanın dayanıqlı inkişafının təmin olunmasına imkan verən əlverişli mühit yaratmaqdan ibarətdir. Proqramın icrası istiqamətində kompleks tədbirlər 2021-ci ildə də davam etdirilmişdir.***



Ötən il mayın 10-da Azərbaycan Respublikasının Prezidenti və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağı, Əlahiddə Ümumqoşun Ordunun hərbi aerodromu, Naxçıvan Qarnizonu Mərkəzi Hospitalı, Süni Mayalanma Mərkəzi, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialı, Culfa-Ordubad magistral avtomobil yolu istifadəyə verilmiş, "Ordubad rayon mərkəzi və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti "ASAN xidmət" Mərkəzinin və Ordubad Su Elektrik Stansiyasının tikintisi ilə maraqlanmış, Ordubad dəmir yolu stansiyasında aparılan yenidənqurma işləri ilə tanış olmuşdur. Bunlarla yanaşı, Ali Məclisin Sədri 2021-ci ildə Dövlət proqramı çərçivəsində müxtəlif təyinatlı 73 obyektin istifadəyə verilməsi ilə bağlı tədbirlərdə iştirak etmiş, 5 obyektin yenidən qurulması istiqamətində görülən işlərlə maraqlanmış, 4 obyektin tikinti və yenidənqurma layihələrinə baxmışdır.

Proqramın mühüm istiqamətlərindən birini sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi təşkil edir. Bu istiqamətdə görülən işlər muxtar respublikada sahibkarlığın inkişafı üçün əlverişli biznes mühitinin formalaşmasına səbəb olur. Sahibkarlığın inkişafının stimullaşdırılması, öz növbəsində, yeni istehsal sahələrinin yaradılmasını və müxtəlif iş yerlərinin açılması yolu ilə əhali məşğulluğunun təmin olunmasına gətirib çıxarır. Bu da sosialyönümlü iqtisadi siyasətin mühüm təzahürü kimi diqqəti cəlb edir. 2021-ci ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən mikro, kiçik və orta sahibkarlara, ümumilikdə, 7 milyon 744 min 378 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Bu dövrdə muxtar respublikada dövlət maliyyə dəstəyi və özəl investisiya qoyuluşu hesabına 157 layihə üzrə işlər başa çatdırılmış, yeni yaradılan istehsal sahələrində 660 iş yeri açılmışdır. İxrac qabiliyyətli məhsullar üzrə əmtəə nişanına dair 25 şəhadətnamə iddiaçılara təhvil verilmiş, 250 ədəd Naxçıvan məhsulları ixrac kataloqu çap edilmişdir. İxrac potensiallı məhsulların 166 halda sertifikatlaşdırılması təmin olunmuş, 2 hüquqi şəxsə "Yaşıl dəhliz" gömrük-buraxılış sistemindən daimi istifadə hüququ verilmişdir. "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 2 min 166 laboratoriya təhlili aparılmış, təsərrüfat subyektlərinə məhsulların texniki normaları və standartları üzrə 170 halda informasiya dəstəyi göstərilmişdir. 2021-ci ildə keçirilən 29 beynəlxalq tədbirdə muxtar respublikada fəaliyyət göstərən 70 sahibkarlıq subyektinin 97 nümayəndəsinin iştirakı təmin olunmuşdur ki, bu da sahibkarların xarici ölkələrdə ticarət tərəfdaşlarının tapılması istiqamətində mühüm rol oynamışdır.

İqtisadi artımın dinamik xarakterini qorumaq üçün beynəlxalq ticarət əlaqələrinin genişləndirilməsi başlıca şərtdir. Bu sahədə fəaliyyətin səmərəli təşkili inkişaf etmiş gömrük infrastrukturunun yaradılmasından əhəmiyyətli dərəcədə asılıdır. Onu da qeyd etmək lazımdır ki, daxili bazarın və iqtisadi təhlükəsizliyin qorunmasında gömrük xidmətinin rolu böyükdür. Ötən il proqramın icrası məqsədilə gömrük orqanlarının maddi-texniki bazasının gücləndirilməsi diqqətdə saxlanılmışdır.



Xidmətin səmərəliliyini artırmaq, nəzarəti sadələşdirmək və yoxlamaları sürətləndirmək məqsədilə gömrük orqanları 1 rentgen yoxlama-baxış qurğusu, 3 videoskop, 7 təftiş aynası, 12 saxta pul dedektoru, 315 ekspress kimyəvi narkotester və 2 məsafədən istilik ölçən termal kamera ilə təmin edilmişdir.

Naxçıvanda mövcud olan əlverişli təbii şərait aqrar sektorun inkişafı üçün mühüm zəmin yaradır. Bu istiqamətdə göstərilən dövlət dəstəyinin həcminin ildən-ilə artması kənd təsərrüfatını sosial-iqtisadi həyatın aparıcı sahələrindən birinə çevirir. Görülən işlər əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi ilə nəticələnir. Proqramın icrası məqsədilə 2021-ci ildə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində 327 texnika və texnoloji avadanlıq alınaraq ehtiyat yaradılmış, "Aqrarkredit" Səhmdar Kredit Təşkilatının Naxçıvan filialında 252 kənd təsərrüfatı avadanlığının icarəyə verilməsi ilə bağlı lizinq müqavilələri bağlanmışdır. Həmçinin aqrar sahədə 4 min 888 sığorta müqaviləsi bağlanmışdır ki, bu da 2020-ci illə müqayisədə 956 müqavilə çoxdur. "Araz" Elm-İstehsalat Birliyi tərəfindən əkin sahələrindən 24 torpaq nümunəsi götürülərək aqrokimyəvi analizlər aparılmış və nəticələr aidiyyəti üzrə təhvil verilmişdir. Babək və Culfa rayonlarının, ümumilikdə, 1 qəsəbə və 8 kənd bələdiyyəsi üzrə torpaq sahələrinin qida maddələri ilə təmin olunma kartoqramları hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur. Muxtar respublikada dövlət maliyyə dəstəyi hesabına 72 heyvandarlıq, 2 quşçuluq, 1 tingçilik, 4 bağçılıq təsərrüfatının yaradılması, 15 heyvandarlıq, 1 quşçuluq, 1 bağçılıq, 1 limonçuluq təsərrüfatının genişləndirilməsi və 1 üzümçülük təsərrüfatının fəaliyyətinin stimullaşdırılması başa çatdırılmışdır. Ötən il 76 ailə təsərrüfatına 1 milyon 221 min 400 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir ki, bu da 2020-ci illə müqayisədə 27 ailə təsərrüfatı və 617 min 800 manat çoxdur. Bakı şəhərinə və respublikanın digər bölgələrinə 425 min 315 manat həcmində ailə təsərrüfatı məhsulları göndərilmişdir. "Naxçıvan Məhsulları" publik hüquqi şəxs tərəfindən ailə təsərrüfatlarından 16 adda ərzaq məhsulları alınaraq qapalı dövlət müəssisələrinin təchizatına yönəldilmişdir. 2021-ci ildə 10 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, 84 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilmiş, 51 ailə təsərrüfatının icarəsinə verilmiş 8,15 hektar torpaq sahəsi üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır. Göycə məhsullarının satış yarmarkasında 195, "Ailə təsərrüfatı məhsulları" satış yarmarkasında 453 ailə təsərrüfatının iştirakı təmin edilmişdir. Ailə təsərrüfatları 6 min 285 tara ilə təmin olunmuş, 61 təsərrüfata istehsal etdikləri məhsulların etiketinin hazırlanmasında köməklik göstərilmişdir. Görülən işlər yüksək məhsuldarlığa və keyfiyyət göstəricilərinə malik məhsulların istehsalı ilə nəticələnmişdir ki, bu da muxtar respublika əhalisinin sağlamlığının qorunması və rifahının yüksəldilməsi deməkdir.

Kənd təsərrüfatının inkişafını şərtləndirən amillərdən biri də daimi su mənbələrinin olmasıdır. Meliorasiya və su təsərrüfatının hərtərəfli inkişafı sosial-iqtisadi fəaliyyətin başlıca istiqamətlərindən birini təşkil edir. Dövlət proqramında da bu istiqamətdə tədbirlər müəyyənləşdirilmişdir. Ötən il "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxsin Kəngərli rayonundakı əkin sahələrində qapalı suvarma şəbəkəsinin tikintisi başa çatdırılmışdır. Ərazidə, ümumilikdə, 3,8 kilometr ana xətt çəkilimiş, 34,7 kilometr paylayıcı boru xətti, 323 hovuz və hidrant, 44 siyirtmə və 28 suboşaldıcı quraşdırılmışdır.



Qrunt sularını kənarlaşdırmaq üçün diametri 300 millimetr olan borularla 5,59 kilometr qapalı drenaj xətti və 5,25 kilometr açıq kollektor çəkilmişdir. Həmçinin Şahbuz rayonunun Külüs, Mahmudoba və Nursu kəndlərinin ərazisində yeni qapalı suvarma şəbəkəsinin tikintisinə başlanılmış, ərazidə 5,25 kilometr ana xətt, 5,82 kilometr paylayıcı boru xətti çəkilmiş, 52 hovuz və hidrant quraşdırılmışdır. Ötən il 11 subartezian quyusu qazılaraq istifadəyə verilmiş, 255,36 kilometr kanal və 296,27 kilometr kollektor-drenaj şəbəkəsinin yerləşdiyi ərazinin topoqrafik planları hazırlanmışdır. Bu dövrdə 186,16 kilometr kanal, 259,43 kilometr ara arx və 66,4 kilometr kollektor lildən təmizlənmiş, ümumilikdə, 1032 hektar ərazidə torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmışdır. Torpaq sahələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə 5,8 kilometr selə qarşı istiqamətləndirici bənd tikilmişdir.

Muxtar respublikada, eyni zamanda əhalinin keyfiyyətli içməli suya olan tələbatının ödənilməsi istiqamətində ardıcıl tədbirlər görülür. 2021-ci ildə 45,65 kilometr içməli su xətlərində, 5,28 kilometr kaptajlarda təmir-bərpa işləri aparılmış,

Ardı 2-ci səhifədə

“Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi çərçivəsində 141,48 kilometr içməli su, 3,21 kilometr kanalizasiya xətti çəkilmişdir. Görülən işlər nəticəsində 4 min 670 evin içməli su, 1805 evin kanalizasiya xəttinə birləşməsi aparılmışdır ki, bu da 2020-ci illə müqayisədə içməli su xətti üzrə 843, kanalizasiya xətti üzrə 1122 ev çoxdur.





Həm istehsal sahələrinin xammal ehtiyatı ilə sürətli təmin olunması, həm də xidmət sahələrində təkliflərin cəlbediciliyinin intensiv surətdə artırılması nəqliyyat imkanlarından əhəmiyyətli dərəcədə asılıdır. Digər tərəfdən nəqliyyat əhalinin gündəlik ehtiyacları içərisində xüsusi çəkisi olan sahələrdəndir. Qeyd edilənlər onu deməyə əsas verir ki, sosial-iqtisadi inkişafa təsir göstərən mühüm faktorlardan biri müasir nəqliyyat infrastrukturunun mövcudluğudur. Dövlət proqramında nəzərdə tutulan yol təsərrüfatı və nəqliyyatın inkişafı tədbirləri çərçivəsində 2021-ci ildə 2 şəhərdaxili və 8 kənd avtomobil yolları, eləcə də Şərur şəhərində yeraltı piyada keçidi yenidənqurmadan sonra istifadəyə verilmişdir. Ümumilikdə, Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən 60,57 kilometr uzunluğunda avtomobil yollarında yenidənqurma və asfalt-beton işləri başa çatdırılmışdır ki, bu da 2020-ci illə müqayisədə 17,65 kilometr çoxdur. “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yararsız vəziyyətdə olan 4 min 709 ağac şpal yeni şpallarla əvəz edilmiş, Culfa Lokomotiv Deposunda lokomotivlər 39 dəfə texniki baxışdan keçirilmiş, Culfa İstismar Vaqon Deposunda 142 vaqon təmir olunmuşdur.






Müasir dövrün aktual strateji məsələlərindən biri də enerji təchizatıdır. Əlverişli coğrafi mövqe və iqlim şəraiti muxtar respublikada ekoloji cəhətdən təmiz, alternativ enerji mənbələrindən istifadəyə geniş imkanlar açır və bu enerji mənbələrinin sayı ildən-ilə artmaqdadır. Dövlət proqramında nəzərdə tutulan və icrası həyata keçirilən tədbirlər Naxçıvanda enerji təchizatı sahəsində müsbət dinamikanın əldə olunmasına gətirib çıxarmışdır. Bu tədbirlər 2021-ci ildə də davam etdirilmiş, Şərur rayonunda 5 meqavat gücündə Günəş, Culfa rayonunda 1,1 meqavat gücündə Külək-Günəş Hibrid Elektrik, Naxçıvan şəhərində Qaz Kompressor stansiyaları istifadəyə verilmişdir. Şahbuz rayonunda 3 kəndi əhatə edən elektrik təsərrüfatı yenidən qurulmuşdur. Ümumilikdə, muxtar respublikada 87,9 kilometr yeni elektrik xətləri çəkilmiş, 238,9 kilometr elektrik xətləri təmir edilmiş, 25 transformator yarımstansiyası quraşdırılmış, 19,6 kilometr hava elektrik xətləri yeraltı xətlərlə əvəz olunmuşdur. Şərur rayonunda 3 meqavat gücündə Günəş, Ordubad rayonunda 15,6 meqavat gücündə Tivi Su Elektrik stansiyalarının tikintisi davam etdirilmişdir. Bu dövrdə 405 smartkarttipli qaz sayğacı quraşdırılmış, 10 qazpaylayıcı stansiyada operator evləri təmir olunmuş, Qaz İstismar Xidmətinə 1 minik avtomobili alınmışdır. Görülən işlər istehlakçıların keyfiyyətli qaz və elektrik enerjisi ilə təmin olunmasına xidmət etmişdir.

İnformasiya texnologiyaları sahəsində hərtərəfli şəraitin yaradılması sənayedən ticarətə, təhsildən tibbi xidmətə qədər sosial-iqtisadi həyatın bir çox istiqamətlərində dinamik inkişafa yaxından təsir göstərir. Bu sahənin dünya miqyasında sürətlə yenilənməsi ən son çağırışlara çevik reaksiya verilməsini zamanın tələbinə çevirir. Dövlət proqramında da rabitə xidmətlərinin yaxşılaşdırılması istiqamətində tədbirlər nəzərdə tutulmuşdur. Bu tədbirlər çərçivəsində 2021-ci ildə Sədərək Radio-Televiziya Ötürücü Stansiyasının yeni binası və 9 kənd mərkəzində rabitə evləri istifadəyə verilmişdir. Ötən il 32 min 357 metr, o cümlədən “Evədək optika” layihəsi çərçivəsində 56 mənzilə fiber-optik kabel xətti çəkilmiş, 6 min 300-dən çox abonent internetlə təmin olunmuş, 2 min 441 yeni telefon nömrəsi abonentlərin istifadəsinə verilmişdir.

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən dövlət siyasətinin mərkəzində insan amili dayanır. Əhalinin sağlamlığının qorunması və keyfiyyətli təhsil imkanlarının yaradılması istiqamətində icrası uğurla davam etdirilən sosial infrastruktur layihələri bunu deməyə əsas verir. Ötən il sosial infrastrukturun yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlər sırasında təhsil quruculuğu həmişəki kimi mühüm yer tutmuşdur. Bu istiqamətdə muxtar respublikanın rayonlarında 9 məktəbin, eləcə də Şəhriyar kənd Uşaq Musiqi Məktəbinin, Naxçıvan Dövlət Universitetində Xarici dillər fakültəsinin yeni binaları və Naxçıvan şəhərində tələbə yataqxanası istifadəyə verilmişdir. Əhaliyə göstərilən səhiyyə xidmətinin daha da yaxşılaşdırılması diqqətdə saxlanılmış, 5 həkim ambulatoriyasının, Ordubad Rayon Uşaq Xəstəxanasının, Naxçıvan şəhərində modul tipli xəstəxananın, Gigiyena və Epidemiologiya Mərkəzinin açılışı olmuşdur. Mərkəzin 3 rayon şöbəsi üçün yeni iş şəraiti yaradılmışdır. Bütün bunlarla yanaşı, mədəni sərvətlərimizin mühafizəsi məqsədilə həyata keçirilən yenidənqurma və bərpa işləri bu sahədə də dövlət qayğısının yüksək səviyyədə olmasından xəbər verir. Ötən il Dövlət proqramında mədəniyyət obyektlərinin əsaslı təmiri və tikintisi ilə bağlı nəzərdə tutulan tədbirlər də davam etdirilmiş, Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binası, Babək rayonunun Cəhri qəsəbəsində yeni məscid istifadəyə verilmişdir.

Mənzil təsərrüfatı və abadlıq-quruculuq tədbirləri çərçivəsində 9 xidmət və kənd mərkəzinin, 3 bayraq meydanının, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının 6-cı Sərhəd Zastavası üçün xidmət və yaşayış kompleksinin, Naxçıvan Şəhər Qeydiyyat Şöbəsi və 3 saylı Notariat Ofisinin açılışı olmuşdur.

İnsan amilinə verilən dəyərin digər mühüm göstəricisi isə şəhid ailələrinin, eləcə də Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi zamanı sağlamlıq imkanlarını qismən itirmiş şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin daim diqqətdə saxlanılmasıdır. Bu istiqamətdə tədbirlər ötən il də davam etdirilmiş, ümumilikdə, 28 ailəyə mənzil və 28 nəfərə minik avtomobili təqdim olunmuşdur. Dövlət proqramının icrası məqsədilə 330 sosial qayğıya ehtiyacı olan ailənin özünüməşğulluğunun təmin olunması bu istiqamətdə də sosial layihələrin davam etdirildiyini göstərir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***“Azərbaycanda sabitlik, inkişaf və tərəqqi vardır. Bunlar da ölkəmizdə ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir. Ölkəmiz inkişaf edir, qayğıya ehtiyacı olan insanlara diqqət göstərilir, əməyi ilə fərqlənənlərə dövlət mükafatları verilir. İnsanlarımız rahat yaşayır, yeni iş yerləri açılır, əhalinin rifahı yaxşılaşdırılır. Bunların hamısı ölkəmizin inkişafına, gələcəyinə xidmət edən işlərdir”.***

2021-ci ildə dövlət əmlakının özəlləşdirilməsindən 678 min 756,39 manat vəsait daxil olmuş, torpaq və qeyri-yaşayış sahələri üzrə bağlanmış icarə müqavilələrindən 214 min 143 manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir. Ötən illə müqayisədə dövlət əmlakının özəlləşdirilməsindən daxil olan vəsaitin məbləğində 412 min 798,14 manat, torpaq və qeyri-yaşayış sahələri üzrə bağlanmış icarə müqavilələrindən dövlət büdcəsinə ödənilən vəsaitin məbləğində isə 51 min 906 manat artım olmuşdur.

Naxçıvan şəhərində 43 nəqliyyat infrastrukturu obyektinə 898 ünvan lövhəsi, 4 min 367 giriş nömrə nişanı quraşdırılmışdır.

*Bir daha aydın olur ki, ötən il Dövlət proqramının uğurla icrası muxtar respublikanın şəhər, rayon və kəndlərinin simasını tanınmaz dərəcədə dəyişərək əhalinin həyat səviyyəsinin daha da yaxşılaşmasına böyük töhfə vermişdir. Hər bir vətəndaşın rifahının davamlı olaraq yüksəlməsinə yönələn uzaqgörən, sistemli və qətiyyətli siyasət, Dövlət proqramından irəli gələn vəzifələrin uğurla yerinə yetirilməsi muxtar respublikanın inkişafının daha da sürətlənməsini təmin etmişdir.*

**“Şərq qapısı”**

## Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul edilən üzvlər və ilk partiya təşkilatı sədri seçilənlər ilə görüş keçirilib



“Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası uzun illərdir, Azərbaycan dövlətçiliyinin qarantı rolunda çıxış edən nəhəng siyasi təşkilat kimi ölkəmizin müstəqillik tarixində mühüm rol oynayır. 2021-ci il martın 5-də Yeni Azərbaycan Partiyasının VII Qurultayında Partiya Sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Yeni Azərbaycan Partiyasının adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Partiya Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi”.***

Hazırda da partiyanın sıraları cəmiyyətin bütün təbəqələrindən olan insanların, xüsusən gənclərin və qadınların sayəsində durmadan genişlənir. Təsadüfi deyildir ki, 2021-ci ildə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatında qəbul edilən 855 nəfərdən 848 nəfərini və ya 99 faizini gənclər, 476 nəfərini və ya 56 faizini qadınlar təşkil etmişdir”.

Bu fikirləri Yeni Azərbaycan Partiyasının Naxçıvan Şəhər Təşkilatında partiyaya yeni qəbul edilən üzvlər və ilk partiya təşkilatı sədri seçilənlər ilə keçirilən görüşdə təşkilatı sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli çıxışında diqqətə çatdırıb. Bildirib ki, Naxçıvan Şəhər Təşkilatı hazırda 150 ilk partiya təşkilatını əhatə etməklə 18 min 776 nəfər üzvü özündə birləşdirir. İlk təşkilat sədrlərinin ümumi tərkibində qadınlar 56 nəfər (37 faiz), gənclər 60 nəfər (40 faiz), ali təhsillilər 135 nəfər (90 faiz), orta ixtisas təhsillilər 15 nəfər (10 faiz) təşkil edir. Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sıralarında birləşən partiya üzvlərinin 9 min 968 nəfəri (yaxud 53 faizi) qadınlar, 11 min 629 nəfəri (yaxud 60 faizi) 18-35 yaşlı gənclərdir.

Elman Cəfərli qeyd edib ki, partiyanın məqsədi Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və müasir beynəlxalq münasibətlər sistemində layiqli yer tutması, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, sabit və sosialyönümlü iqtisadiyyatın yaradılması, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən asılı olmayaraq, vətəndaşların hüquq və azadlıqlarının hərtərəfli və etibarlı müdafiəsinin təmin edilməsi, qanunçuluq, ictimai həmrəylik və firavan həyat üzərində qurulmuş vətəndaş cəmiyyətinin formalaşdırılması, insanların müstəqil dövlətçilik ideyası və Azərbaycançılıq məfkurəsi ətrafında birləşdirilməsindən ibarətdir. Yeni Azərbaycan Partiyası Azərbaycanın ümummilli lideri, partiyanın qurucusu Heydər Əliyevin irsinin təbliği və təşviqi ilə məşğul olur.

Sonra Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul edilən bir qrup gəncə üzvlük vəsiqələri təqdim edilib.

Partiyaya yeni qəbul edilən gənclərdən Naxçıvan Dövlət Universitetinin tələbəsi Firuz Məmmədli və yeni ərazi ilk partiya təşkilatı sədri seçilən Tarverdi Məmmədov tədbirdə çıxış edərək onlara göstərilən etimada görə minnətdarlıqlarını bildirib, üzərlərinə düşən məsuliyyəti şərəflə daşıyacaqlarına söz veriblər.

**Xəbərlər şöbəsi**

*İqtisadiyyatın bütün sahələrində müşahidə olunan inkişaf meyilləri istehlakçıların hüquqlarının qorunması sahəsində də səylərin artırılmasını tələb edir. Muxtar respublikada bu sahədə mühüm addımlar atılır, daxili bazarın keyfiyyətli məhsullarla təminatına ciddi fikir verilir.*

## Muxtar respublikada istehlak mallarının ekspertizası diqqət mərkəzində saxlanılır



Bu istiqamətdə “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən ötən il 85 mal çeşidini əhatə edən 604 səyyar və 2166 halda mal nümunəsi laboratoriya analizindən keçmişdir. Aparılmış laboratoriya təhlilləri, əsasən, 1668 yerli istehsal məhsulunu və 498 idxal məhsulunu əhatə etmişdir. Qeyd olunan dövrdə 927 halda hüquqi və 1239 halda fiziki şəxslər tərəfindən daxil olmuş 2166 halda mal nümunələrində laboratoriya təhlilləri aparılarkən 2164 nümunənin keyfiyyət göstəriciləri qüvvədə olan normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi, 2 halda mal nümunəsinin isə keyfiyyət göstəricilərinin aşağı olduğu müəyyən edilmişdir.

Normativ-texniki sənədlərin tələblərinə cavab verməyən məhsullarda nöqsanların aradan qaldırılması məqsədilə aidiyyəti sahibkarlıq subyektləri ilə maarifləndirici istiqamətdə işlər aparılmış və metodik köməkliklər göstərilmişdir.

Muxtar respublika iqtisadiyyatına gündən-günə daha böyük töhfə verən ailə təsərrüfatlarının istehsal etdikləri ərzaq məhsullarından ötən il 273 halda orta nümunələr götürülərək keyfiyyət və təhlükəsizlik göstəriciləri üzrə laboratoriya təhlilləri aparılmışdır.

Sahələrdə yetişdirilən bostan-tərəvəz məhsullarının istehsalçılar tərəfindən birbaşa bazarlara təklif edildiyi nəzərə alınaraq 700 halda səyyar laboratoriya təhlilləri aparılmış, istehsalçılarla maarifləndirmə tədbirləri davam etdirilmişdir.

2021-ci ildə muxtar respublikadan ixrac olunan malların mənşə ölkəsinin təyin edilməsi məqsədilə müxtəlif məhsullar üzrə müvafiq ekspertizalar aparılmış və “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 137 halda mənşə sertifikatının verilməsi təmin edilmişdir.

“İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyası muxtar respublikada istehsal edilən və ya muxtar respublikaya idxal olunan qida məhsullarının beynəlxalq tələblərə uyğun yoxlanılmasını mütəmadi olaraq davam etdirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

Yeni nəşrlər

# “Niyə belədir dünya” haqqında bir neçə söz

Şeirləri ilə onu mətbuat səhifələrindən qiyabi də olsa, tanıyırdım. İki kitabının nəşr olunduğunu da bilirdim. Nəhayət, özü ilə tanışlığım yaxın dostluğa çevrildi. Bir qədər sonra işıq üzü görmüş üçüncü kitabını mənə təqdim etdi. Vərəqlədim, vərəqlədikcə Alməmməd Eldaroğlunun qəlbən şair olduğunu, onun dünyaya söz adamı kimi doğulduğu qənaətinə gəldim.




Budur, həmin kitabla üz-üzəyəm: “Niyə belədir dünya?” Dostumun yeni yaradıcılıq topluсunu vərəqlədikcə müəllifin oxucusuna ünvanladığı suala özünün cavab verdiyini görürəm.

Almәmmәd Eldaroğlunun yeni kitabına “Ön söz” yazan Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, şair-dramaturq Asim Yadigarın qənaəti maraqlıdır: “... onun mətbuatda dərc olunan, almanaxlarda işıq üzü görən şeirləri, məqalələri və “Vətən əmanətdir”, “Mənim gördüyüm dünya” şeirlər kitabları məndə belə bir qənaət yaradıb ki, Almәmmәd söz adamıdır. Şeirin yükünü daşımağı, ona poetik don geyindirməyi bacaran istedadlı şairdir. Onun şeirlərində özü var, saf, təmiz dünyası var. Bu dünyaya hansı bucaqdan baxırsansa bax, orada duyğuların təmizliyi, saflığı səni özünə cəlb edəcəkdir”.

Əgər saf, təmiz daxili dünya varsa və bu dünyadan hamımızın yaşadığımız dünyaya baxırıqsa, orada real həyatımızı görəcəyik.

Asim Yadigar da çox doğru olaraq bu qənaətə gəlir ki, Almәmmәd Eldaroğlu istər dövlətə, dövlətçiliyə, istər şanlı tariximizə, istərsə də bugünkü inkişafımıza həsr etdiyi şeirlərində necə safdırsa, məhəbbət lirikasında, digər mövzularda da elədir. Elə kitabdakı “Heydər-Azərbaycan oldu əbədi!” adlı ilk şeiri ilə şair bunu təsdiq edir:

*Vücudu əyilməz əzəmətli dağ,*
*Meyvəsi tükənməz, bəhrəli bir bağ,*
*Bütün çətinlikdən çıxdı üzü ağ,*
*Müqəddəs ocağa döndü məbədi,*
*Heydər-Azərbaycan oldu əbədi!*

Şeirlərindən qırmızı xətt kimi keçən vətənpərvərlik duyğularının poetik yozumunda Almәmmәd Eldaroğlu kimisə və həm də özünü təkrar etmir; hər bir şeirində yeni söz deməyə səy göstərir, buna nail olmaqla oxucu qəlbinə yol tapa bilir; onu düşünməyə sövq edir. Şairin şəhidlərimiz, düşmәndən azad edilmiş yurd yerlərimiz, tariximizi özündə yaşadan bölgələrimiz, müqəddəslik qazanmış abidələrimiz haqqında qələmə aldığı şeirlər oxucu tələbi ilə üst-üstə düşür.

Şairin insan, onun daxili aləmi, cəmiyyət üçün gördüyü işlərlə nüfuz qazanması və digər mövzularda oxucuya təlqin etdiyi fikirlər ədəbiyyatımız üçün yeni deyil; Almәmmәd Eldaroğlu da bunu yaxşı bilir. Ona görə də keçilmiş yolla getmir; özünəməxsus bədii priyomlara üstünlük verir.

Şairin bütün şeirlərində, bayatılarında, qəzəllərində, poemalarında bunu görə bilirik:

*Keçən gördüm yüzünü,*
*Söyləyən yox düzünü.*
*Ayın üzü görünmür –*
*Bulud tutub üzünü.*

Klassik ədəbiyyatımızın ən qədim, ən zəngin janrlarından biri olan qəzəl poeziyamızda hələ öz poetik ağırlığını saxlasa da, son dövrlərdə bu janrda yazılmış nümunələrə az-az rast gəlirik. Almәmmәd Eldaroğlu bu janrda da qələmini sınayaraq uğurlu qəzəl nümunələri yarada bilib. Bu nümunələrdə şair həm də dünənə ehtiramını ifadə etməyə çalışır:

*Abad ölkəmdə mənim təblə muğamat oxunur,*
*Musiqi məclisini tar ilə kaman aparır.*

Növbəti kitabında şair öz oxucularına iki poemasını da təqdim edib. “Qonaq getmişdim Araza” və “Niyə belədir dünya” adlı poemalar, təbii ki, ayrı-ayrı mövzularda qələmə alınsa da, müəllif öz amalına sadiq qalıb, sözə ehtiramının sözlə tablosunu çəkib. Bəzi şairlərimizdən fərqli olaraq Almәmmәd ikiyə bölündüyümüz üçün Arazı günahkar tutmur; çox doğru olaraq günahkarın öz içimizdə olmasını ortaya qoyur. Bu baxımdan “Niyə belədir dünya” poemasını əvvəlki poemanın məntiqi davamı da saymaq olar.

Oxuculara onu da çatdırım ki, Almәmmәd Eldaroğlu qələmini ara-sıra nəsrdə də sınayır. Hazırda o, dedektiv roman üzərində işləyir. Güman edirik ki, müəllif oxucularını bu kitabı ilə də sevindirə biləcək. Almәmmәdi yeni kitabının işıq üzü görməsi münasibətilə təbrik edir, ona daha böyük yaradıcılıq uğurları arzulayırıq.

**Muxtar MƏMMƏDOV**

# Qrip əleyhinə peyvəndləmə aparılır



Soyuq qış aylarında havaların soyuması ilə mövsümi xəstəliklərin də sayı artır, qrip və kəskin respirator virus infeksiyalarına yoluxma halları çoxalır. Pandemiya dövründə isə bu virusa qarşı vaksinasiya daha da aktuallaşır. Elə bu səbəbdən qrip əleyhinə peyvənd olunmaq dünyada yayılan pandemiya ilə mübarizənin bir üsuludur. Odur ki, Naxçıvan Muxtar Respublikasında hər il olduğu kimi, cari ildə də qrip əleyhinə vaksinasiya həyata keçirilir. Bu məqsədlə hazırda mövsümi qrip vaksininin bölgüsü aparılır və yerlərdə icrasına və sistemə işlənməsinə nəzarət edilir. Peyvəndlər risk qrupunda olan bütün tibb işçilərinə, yaşı 65-dən yuxarı olan şəxslərə, hamilələrə və 6 aydan yuxarı olan uşaqlara vurulur. Digər qruplar da özləri könüllü olaraq peyvənddən yararlana bilirlər.

Artıq yanvarın əvvəlindən bəri 512 nəfər qripə qarşı vaksinasiyaya cəlb olunub.

Bu fikirləri Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Sanitar epidemioloji nəzarət şöbəsinin aparıcı məsləhətçisi Çinarə Əhmədova bildirib.

Risk qrupunda olan şəxslərə daha əvvəl peyvənd vurulmayıbsa, fevral ayına qədər peyvənd vurula bilər. Peyvənd bütün dünyada 60 ildən artıqdır ki, istifadə olunur. Peyvənd qripdən 70 faizdən çox qoruyur və riskli insanlarda yarana biləcək fəsadların (məsələn, ağır ağciyər infeksiyaları) qarşısını ala bilir. Xəstəliyin qarşısının alınmasında peyvəndlə yanaşı, əl gigiyenasının təmin edilməsi və ümumi sağlamlıq tədbirlərinə (qidalanma, fiziki fəaliyyət və yuxu rejimi) diqqət yetirilməsi, insanların sıx olduğu mühitlərdən və xəstə insanlardan uzaq durmaq da mühüm əhəmiyyət kəsb edir.

Epidemioloq onu da qeyd edib ki, qrip hər il dünyada, təxminən, 2-5 milyon insana yoluxan, 250 mindən çox insanın isə ölümünə səbəb olan virusun törətdiyi bir infeksion xəstəlikdir. Xəstəliyə səbəb olan influenza virusunun quruluşu asanlıqla dəyişir. Virusun asanlıqla tərkibinin dəyişməsi xəstəliyə hər il yoluxmamızın səbəbidir. Öskürən və ya asqıran xəstə insan havadamcı yolu ilə çox sayda virusu ətrafa yayır. Ətrafa yayılan virus damcıları ağız, burun, ya da gözlərə təmas etdiyindən yoluxma qeydə alınır. Bu səbəblə qripli xəstə virusu ətrafa yaymamaq üçün asqıran, yaxud öskürən zaman ağzını dəsmalla, yaxud qolları ilə tutmalıdır. Qripli xəstə tez-tez əllərini yumalı, su və sabunun olmadığı məqamlarda əl antiseptikləri istifadə etməlidir. Bildirib ki, Səhiyyə Nazirliyi tərəfindən mövsümi qrip əleyhinə peyvəndlər alınıb. Nazirlik tərəfindən muxtar respublikaya gətirilən bu vaksinlərin saxlanılması qaydaları fərqli, dozasına görə çox keyfiyyətlidir. Həmin peyvəndlər Gigiyena və Epidemiologiya Mərkəzi, onun rayon şöbələrində dövlət hesabına əhaliyə vurulur.

Xatırladaq ki, ötən il risk qruplarından olan vətəndaşlardan 17 min 545 nəfər mövsümi qrip əleyhinə vaksinasiyaya cəlb olunub ki, onlardan da 1800 nəfəri uşaqdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Seminar olub

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin ekspertləri tərəfindən Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbində “Sürücülərin peşə fəaliyyətində ekspert təcrübəsi” mövzusunda seminar keçirilmişdir.*

Seminarda nəqliyyat vasitələrinin istismar qaydaları, yol-nəqliyyat hadisələri hallarının aradan qaldırılması və sürücülük qorxusu və ya amaksofobiya (avtomobil sürmək üçün patoloji qorxu) haqqında iştirakçılara məlumat verilmişdir.

Məktəbin direktoru Rəfael Abdullayev mövsumi şəraitlə əlaqədar olaraq baş verən yol-nəqliyyat hadisələrinin aradan qaldırılması istiqamətində maarifləndirici tədbirlərin əhəmiyyətini diqqətə çatdırıb.



Seminarda mərkəzin ekspertləri Məhəmməd Həşimovun, Azər Abdullayevin və Fariz Səyyadovun mövzu ətrafında çıxışları dinlənilib. Müdavimlərə yol-nəqliyyat hadisələrinin qanunvericilikdə təsbiti, onların baş verməsinin obyektiv və subyektiv səbəbləri və aradan qaldırılması üçün görülməli olan tədbirlər barədə ətraflı məlumat verilib.

Amaksofobiyanın (avtomobil sürmək üçün patoloji qorxunun) səbəbləri və psixoloji gərginliyin fəsadları haqqında məlumat verən mərkəzin eksperti həmin fobiyanın aradan qaldırılmasının vacibliyi və yolları haqqında danışıb.

Sonda iştirakçıların sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının 2021-ci ilin yekunu və 2022-ci ildə görüləcək işlərə dair hesabat yığıncağı keçirilib. Federasiyanın sədri Elbrus İsayev

# Basketbol Federasiyasının hesabat yığıncağı keçirilib



qeyd edib ki, ölkəmizdə digər sahələrin uğurlu inkişafı ilə yanaşı, basketbol idman növünə də xüsusi önəm verilir. Vurğulanıb ki, 27 aprel 2021-ci il tarixdə açıq havada universitet tələbələrinin “XV Universiadası”nın proqramına daxil olan basketbol yarışları keçirilib. Yarışlarda 33-ü əcnəbi olmaqla, 110 tələbə iştirak edib. Naxçıvan şəhərində fəaliyyət göstərən 11 tam orta məktəbin komandaları arasında, 15 İyun – Milli Qurtuluş Gününə həsr edilmiş “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!” devizi altında Naxçıvan şəhər tam orta məktəblərinin 9-11-ci sinif şagirdlərindən ibarət oğlan komandaları arasında Naxçıvan şəhər birinciliyi keçirilib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə birlikdə muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin muxtar respublika birinciliyi, ümumtəhsil məktəblərinin oğlan komandaları arasında basketbol üzrə muxtar respublika birinciliyi keçirilib. Naxçıvan şəhərini və muxtar respublikanın rayonlarını təmsil edən 8 komandanın iştirak etdiyi yarışlarda 80 idmançı qüvvəsini sınayıb. Elbrus İsayev qeyd edib ki, basketbol idman növü üzrə məşqlər keçirilməklə bərabər, 19 aprel 2021-ci il tarixdə muxtar respublikada basketbol yarışlarını idarə etmək üçün ictimai hakimlər və məşqçilər hazırlamaq məqsədilə 15 nəfərin iştirakı ilə ikihəftəlik seminar təşkil olunub. Respublika dərəcəli hakim Füzuli Salmanovun rəhbərliyi ilə aparılan seminarda hazırlanan hakimlər sonrakı dövrlərdə təşkil olunmuş yarışları idarə ediblər. Bildirilib ki, müasir iş prinsiplərinin və innovativ yeniliklərin tətbiqini təmin etmək məqsədilə ötən il federasiyanın internet saytının təqdimatı olub.

Elbrus İsayev deyib ki, hazırda muxtar respublikanın ümumtəhsil məktəblərində və uşaq idman məktəblərində 42 basketbol klubu fəaliyyət göstərir ki, bu klublarda 536 şagird bu idman növü ilə məşğul olur. Naxçıvan Dövlət Universitetində isə 47 nəfər olmaqla, 3 basketbol qrupu fəaliyyət göstərir.

Bildirilib ki, Naxçıvan Dövlət Universitetinin Məşqçilik ixtisasında basketbol seçmə ixtisas fənni kimi tədris olunur. Bu fənnin tədrisinin keyfiyyətini yüksəltmək məqsədilə basketbola aid dərs vəsaiti və proqramlar hazırlanıb. Vurğulanıb ki, 2002-ci ildə yaradılan Basketbol Federasiyası idmanın bu növünün inkişaf etdirilməsini, yeniyetmə və gənclərin idmana cəlb olunmasını, idman yarışlarının kütləviliyinin artırılmasını daim diqqətdə saxlamalıdır. Elbrus İsayev diqqətə çatdırıb ki, gələcəkdə də Basketbol Federasiyası Gənclər və İdman Nazirliyi ilə birgə işini günün tələbləri səviyyəsində qurmalı, eyni zamanda komandaların tərkibinin gücləndirilməsi istiqamətində ardıcıl işlər görməli və bu idman növünün kütləvi hal alması üçün bütün zəruri tədbirlər həyata keçirilməlidir.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı çıxış edərək müasir dövrdə muxtar respublikada idmanın inkişafı üçün dövlət səviyyəsində keçirilən tədbirlərdən, qazanılan uğurlardan danışıb. Vurğulanıb ki, Basketbol Federasiyası öz işini 2021-ci ildə verilmiş tapşırıqlara əsasən qurub. Naxçıvan şəhəri və bölgələrdə federasiyanın bölmə və qrupları fəaliyyət göstərir ki, həmin bölmələrdə, ümumilikdə, 12 qrup üzrə 148 yeniyetmə və gənc idmanla məşğul olur. Diqqətə çatdırıb ki, nazirliklə federasiyanın birgə və məqsədyönlü fəaliyyətinin nəticəsi olaraq dövlət idman siyasəti çərçivəsində qarşıya qoyulan tələb və tapşırıqlar yerinə yetiriləcək, bu sahənin inkişafı yolunda yeni uğurlar əldə olunacaq.

Sonda muxtar respublika məktəblərinin basketbol üzrə məşqçiləri Fəxri fərman və hədiyyə ilə mükafatlandırılıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Milli pul nişanlarının tanıdılması ilə bağlı tədbir



*Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən Heydər Əliyev adına tam orta məktəbdə ibtidai sinif şagirdləri üçün “Bank Savadlılığı Layihəsi” çərçivəsində “Gəlin manatımızı tanıyaq!” adlı tədbir keçirilmişdir.*

Tədbiri giriş sözü ilə İqtisadi təhlil və statistika şöbəsinin rəisi Qənbər Xudiyev açaraq tədbirin keçirilməsində əsas məqsədin müxtəlif maarifləndirici vasitələrlə şagirdlərin pul haqqında bilik və bacarıqlarının artırılması, həmçinin milli pul nişanlarının gündəlik həyatımızdakı yeri və pullardan düzgün istifadə qaydaları haqqında olduğunu demişdir.

Tədbir zamanı şagirdlərə Mərkəzi Bankın “Bank Savadlılığı” Komandasının üzvü Nərgiz Allahverdiyeva tərəfindən pul haqqında ətraflı məlumat verilmiş, o cümlədən pulların tarixi, yaranma zərurəti, mübadilə vasitəsi kimi istifadəsi, ölkəmizdə istifadə olunan kağız və metal pul nişanları, dövriyyəyə buraxılmış yeni valyutalar, pul nişanlarının əsas elementləri və sair mövzular elektron slaydlarla tədris olunmuş və şagirdlərin mövzu ətrafında sualları dinlənilmiş, verilən suallar daha aktiv şagirdlər tərəfindən cavablandırılmışdır.

Sonra şagirdlər arasında milli valyutamızı daha yaxından tanımaq məqsədilə Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşları tərəfindən yenilənmiş 1 manatlıq pul nişanımızın “puzzle” formasında hazırlanmış oyunu oynanılmışdır. Oyuna başlamazdan əvvəl “Bank Savadlılığı” Komandasının üzvü Ceyhun İbrahimov oyunun qaydaları haqqında şagirdlərə ətraflı məlumat verərək bildirmişdir ki, bu oyunu oynamaqla şagirdlər pul nişanımızın üzərində təsvir olunmuş müxtəlif elementlərlə daha yaxından tanış olacaqlar. Oyun “Zirvə”, “Yüksəliş”, “Birlik”, “Zəka” və “Hədəf” komandalarından ibarət olmaqla, 5 komanda arasında keçirilmişdir. “Zirvə” komandası digərləri ilə müqayisədə daha fəallıq göstərərək tapşırığı minimum vaxtda icra edərək qalib komanda seçilmişdir.

Sonda oyunda iştirak edən hər bir şagirdə Mərkəzi Bank tərəfindən həvəsləndirici tədris vəsaitləri, qalib komandanın üzvlərinə isə müxtəlif hədiyyələr təqdim olunmuşdur.

**Xəbərlər şöbəsi**

*Hər fəslin öz yeməyi öz qidalanma qaydası var. Məsələn, yazda pencər, yayda ağartı məhsullarından hazırlanmış yeməklər, payızda vitaminli qidalara üstünlük veririk. Qış aylarında isti yeməklərə, ət xörəklərinə... İlin hər bir fəslinə uyğun qidalanma rejimi olmalıdırmı? Qış fəslinin də öz qida rasionu varmı? Bu kimi suallarımızı Şəfa Özəl Tibb Mərkəzinin diyetoloqu, sağlam qidalanma üzrə mütəxəssis Pərvanə Qəhrəmanova cavablandırır.*

Mütəxəssis sözü

# Qış fəslində necə qidalanaq

*– Düzgün qidalanma nə deməkdir? Bunun bir düsturu varmı?*

– Bu suala cavab verməzdən öncə bir tarixi faktı nəzərinizə çatdırıram. 1970-1975-ci illər arası amerikalı professor Sula Benet adlı xanım Qafqaz bölgəsini oba-oba gəzib, müşahidə və tədqiqatlar aparır və nəticədə, "How to live to be 100" – "Necə yaşayasan, yüzü haqlayasan" adlı bir kitab yazır. Məqsədi uzunömürlüləri ilə ad çıxarmış Qafqaz xalqlarının həyat tərzini, qidalanmasını və ailə münasibətlərini öyrənmək idi. O, əldə etdiyi məlumatları öz kitabında cəmlədi. Kitabda Naxçıvan, Qarabağ və Bakı bölgəsinə aid tarixi faktlar qeyd edilir. Bu gün sizə həmin kitabdakı Naxçıvan barəsində verilən məlumatlardan danışmaq istəyirəm. 1967-ci ilin məlumatına görə, Naxçıvan MSSR-də əhalinin hər yüz min nəfərinə 592 uzunömürlünün düşdüyü qeyd edilir. Naxçıvan bölgəsində yüksək xolesterinli qida qəbulunun ənənəvi olduğu və buna paralel olaraq ateroskleroz və yüksək qan təzyiqinin əhalinin cəmi 4,8 faizində özünü göstərdiyi həm bu kitabda, həm də tibbi ədəbiyyatlarda qeyd edilir. Gəlin bu gün, sadəcə, bu fakta əsasən sualınıza cavab verək. Bizim qidalanma və sağlam ailə münasibətlərində öz keçmişimiz var. Çox şükür ki, bu gün Naxçıvanda hələ də keçmişimizin izləri qorunub saxlanılır. Sağlam qida digər bölgələrimizlə müqayisədə daha əl çatandır. Naxçıvan sakinləri həmişə yağlı, duzlu və ədviyyatlı qidalara üstünlük verib və tarixboyu da bunun yan təsirlərindən əziyyət çəkməyib. Çünki təbiəti sərt olan bölgənin əhalisi üçün ən doğru qidalanma budur. Sual verə bilərsiniz, bəs niyə bu gün hər 5 nəfərdən 3-ü təzyiqdən, şəkərdən, qan dövranı pozuntusundan əziyyət çəkir? Bunun bir çox səbəbləri var. Bir diyetoloq kimi görkəmli mütəxəssislərin fikirlərinə istinad edərək onu demək istəyirəm ki, bu bölgə həmişə heyvani yağlardan istifadə edib, tarixboyu duru yağların qəbulu bura üçün xarakterik olmayıb. Naxçıvanın əhalisi doymamış yağları Naxçıvanda bitən quru meyvələrdən, çərəzlərdən, dağ otlarından alıb. Bir çox bölgələr çərəzi rasiona Novruz bayramı ərəfəsində salsalar da, burada hər həyətdə çərəz ağacları olduğu üçün gündəlik rasionda böyük yer tutub. Xıdır və Novruz ərəfəsində isə bu hal daha yayqınlaşır. Duru yağlar doymamış yağlar qrupuna aid olduğu üçün yüksək istilikdən trans yağ formasına keçir və bu da vücud üçün toksik yükdür. Xüsusilə bu bölgə heyvandarlıqla və bölgəyə xas ağac və bitki yetişdirməklə məşğul olduğu üçün qida rasionu da bölgəyə xas formalaşıb və ən doğrusu da, budur.

*– Qış mövsümü xəstəliklərin çoxaldığı, virus infeksiyalarının sürətlə yayıldığı dövrdür. Bu fəsildə necə qidalanmalıyıq ki, immun sistemimiz möhkəmlənsin, bu barədə nələri məsləhət bilirsiniz?*



– Qış fəslində rasionda meyvələrə yer verilməlidir. Rasiondakı boşluğu tamamlamaq üçün köməyimizə həm də bölgəmizin şəfalı otları gəlir. Bölgə əhalisi yaz və yay dövrü dağlarda, meşələrdə yetişən otlardan qurudaraq qışa tədarük görür. Yayda meyvələrdən və tərəvəzlərdən turşular hazırlanır. Turşular immun sistemimiz üçün əvəzedilməz hesab olunan təbii probiotiklərdir. Üzüm, tut və bu bölgəyə xas olan həmərsin və digər müxtəlif çeşidli meyvələrdən doşablar hazırlanır. Əgər yaza halsız, vitaminsiz daxil olmaq istəmiriksə, qış mövsümündə gündəlik rasionumuzda dağ otlarından olan bitki çaylarına, doşablara, yayda hazırlanmış turşulara, meyvə şirələrinə və arı məhsullarına üstünlük verməliyik. Bu fəsildə həm də vücudu isidən qida və tərəvəzlərə üstünlük verilməli, istixana məhsullarından uzaq durulmalıdır. Xiyar yay tərəvəzidir və vücudu soyudur. Qış fəslində onun istixanada yetişmiş formasını yeyib vücudunuzu soyutmaqdansa, turşusunu isti xəmir yeməkləri ilə birlikdə qəbul etməyiniz canınıza istilik verər, immun sisteminizə möhkəmlik qatar. Ət məhsullarından hazırlanan yeməkləri nahara salmaqda fayda var. Çünki nahar vaxtı maddələr mübadiləsinin ən sürətli getdiyi zamandır. Ət məhsulları da gec həzm olunan qidalardandır. Bioloji ritmin vücuda təsiri böyükdür. Necə ki yay fəslində maddələr mübadiləsi sürətlənir, qış fəslində də maddələr mübadiləsi nisbətən yavaşıyır. Ona görə də axşam saatlarında ağır yeməklərdən istifadə etmək düzgün deyil. Axşam saatlarında balıq yeməklərindən, tərəvəzlərdən, ağartı məhsullarından, tərəvəz və çərəz salatlarından hər hansı birini seçmək daha düzgündür. Bununla gecə yuxunuz da rahat olar. Gecə yuxusu qaydasında olanların immun sistemi də güclü olur.

*– Doğru qidanı necə seçək bu barədə nə deyə bilərsiniz ?*

– Bu sırada öncə ət məhsullarından kəlləpaçanı, balığı, toyuğu misal göstərə bilərik. Düzgün sıralasaq, xaşdan səhər saatlarında, çolpadan hazırlanan yeməkdən günorta saatlarında, balıqdan hazırlanan yeməklərdən isə axşam saatlarında istifadə etmək faydalıdır. Amma bu saydıqlarımızın hamısının eyni günə düşməməsinə diqqət edin. Səhər Naxçıvanın can dərmanı sayılan şor-kərə və ya balxama yeməyə üstünlük verin. Günortaya istənilən ət məhsulunu, axşama isə tərəvəzli (məsələn, balqabaqlı) bir yemək yeyə bilərsiniz. Beləliklə, həm büdcənizə, həm sağlamlığınıza fayda verərsiniz. Unutmayaq ki, sadaladığımız nemətlər Uca Yaradan tərəfindən bizə bəxş olunub. Onu da deyim ki, bioloji ritmin bir xüsusiyyəti müəyyən bir ildə çoxluq təşkil edən hər hansı bir məhsuldan bol istifadə etməyin zəruriliyidir. Həmin məhsul bizə xoş gəlməsə belə, ondan əvvəlki illərə nisbətən çox istifadə edilməlidir. COVID-19 pandemiyasından öncəki il bazarlarımızda sarımsaq bolluğu ilə qarşılaşmışdıq. Qiyməti də çox münasib idi. Bu nemət, bəlkə də, orqanizmimizi bu virusa hazırlamaq üçün Uca Yaradan tərəfindən bollaşdırılmışdı. Bu məhsulun yaxşı turşusu olduğu kimi, sobada qabıqlı bişmişinin də ayrı ləzzəti olur. Çiy şəkildə sarımsaqlı qatığın isə faydaları saymaqla bitməz.

*– Artıq çəkidən əziyyət çəkənlərin sayı ilbəil çoxalır. Onlara bu qış mövsümündə nələri məsləhət görərdiniz?*

– Təbii bioloji ritmə əsasən qış dövrü kilo alma dövrüdür və bu normaldır. Amma hazırkı kilo almalar tədarükdən çox xəstəliyə çevrilib. Belə ki, hər kəsə narahatlıq və paralelində xronikiləşmiş xəstəliklər gətirir. Səbəbi isə həzmdədir. Həzmsizlik və mübadilə pozuntusu lazımsız bölgəsəl piylənməyə gətirib çıxarır. Məsələn, xaş dədə-babadan sirkə sarımsaqla yeyilib. Yağlı ət yeməkləri sumaqla, abqora ilə istifadə edilib. Onları təfərrüat kimi görüb rasiondan çıxarsanız, "əvvəlki qidalar və yeməklər qalmayıb", – deyərək günahı qidalarda, zəmanədə görəcəksiniz. Halbuki həzmimizi düzəltməklə bu problemlərdən xilas ola bilərik. Ağır yeməklərdən sonra bölgənin camaatına xas olan qursaqdan hazırlanan mayadan tutulmuş pendirə qədər təbii "festal" rolu oynayırdısa, indi artıq hazır mayalardan əldə edilən pendir heç bir iş görmür. Artıq çəkidən əziyyət çəkənlər bilməlidirlər ki, onların ən böyük düşməni vaxtlı-vaxtında qidalanmamalarıdır. Qida qəbul saatlarını stabil saxlamaq lazımdır. Qəti olaraq deyim ki, belələri bioloji ritmi, mövsümə uyğunluğu, qida qəbulu saatlarını qoruyub saxlamaqla sağlam çəkilərinə qovuşa bilərlər.

*– Müsahibə üçün sağ olun.*

**Ramiyyə ƏKBƏROVA**

## Futbol Federasiyasının iclası keçirilib



*Uzunoba Təlim-Məşq İdman Kompleksində Naxçıvan Futbol Federasiyasının iclası keçirilib.*

Tədbirdə Futbol Federasiyasının və "Araz-Naxçıvan" Peşəkar Futbol Klubunun idarə heyəti və üzvləri təsdiq olunub.

İclasda çıxış edən Naxçıvan Futbol Federasiyasının sədri Vüqar Abbasov bildirib ki, Naxçıvan Muxtar Respublikasında idmanın inkişafı sahəsində mühüm işlər görülür, idmanın maddi-texniki bazası xeyli gücləndirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə yaradılan idman federasiyaları, eləcə də yeni tikilən və ya əsaslı təmir olunan idman obyektləri idmanın inkişafına göstərilən dövlət qayğısının bariz nümunəsidir. Bu işlərin davamlı həyata keçirilməsi və yaradılan müasir idman mühiti gənclərin bədən tərbiyəsi və idmana olan marağını xeyli artırıb. Muxtar respublikada bütün idman növləri kimi, futbol da göstərilən diqqət və qayğıdan bəhrələnir. Ötən il istifadəyə verilən Uzunoba Təlim-Məşq İdman Kompleksi bu sahədə görülən işlərin nəticəsidir. Qurulan və yaradılan şəraitin nəticəsidir ki, ilin bütün fəsillərində burada məşqlər aparılır, oyunlar keçirilir. Bu da uşaq, yeniyetmə və gənclərdə idmanın bu növünə olan marağı artırır, onların asudə vaxtlarını səmərəli keçirmələrinə zəmin yaradır.

Sonra gündəlikdə duran məsələlər müzakirə edilib. İlk olaraq Futbol Federasiyanın idarə heyətinin üzvləri təsdiqlənib. Belə ki, Vüqar Abbasov idarə heyətinin sədri, Sakit Rzayev federasiyanın sədr müavini, Gənclər və İdman Nazirliyinin nümayəndəsi Taleh İbrahimov, Səhiyyə Nazirliyinin nümayəndəsi Vüqar Babayev, Təhsil Nazirliyinin nümayəndəsi Elxan Babayev, Daxili İşlər Nazirliyinin nümayəndəsi Nazimət Məmmədov və Fövqəladə Hallar Nazirliyinin nümayəndəsi Mirtaleh Seyidov Futbol Federasiyası idarə heyətinin üzvləri seçilib.

"Badamlı Mineral Suları" Məhdud Məsuliyyətli Cəmiyyətinin nümayəndəsi Hümbət Qəhrəmanov, "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətinin nümayəndəsi Teymur Rzayev, "Cahan Tabocco" Məhdud Məsuliyyətli Cəmiyyətinin nümayəndəsi Tural Hüseynəliyev, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı idarə heyətinin üzvü, kinorejissor Tahir Tahiroviç, veteran futbolçular Canpolad Həsənov və İlham Məmmədov isə "Araz-Naxçıvan" Peşəkar Futbol Klubunun idarə heyətinin üzvləri seçilib.

Futbol Federasiyasının sədri qeyd edib ki, yerli və xarici əməkdaşlıq ələqələri sayəsində gələcək planların icrası üçün məqsədyönlü addımlar atılacaq və bu sahədə əsaslı irəliləyişlər olacaqdır. Sonda Vüqar Abbasov göstərilən etimada, yaradılan hərtərəfli şəraitə görə federasiyanın məşqçi və idmançıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Qeyd edək ki, Naxçıvan Futbol Federasiyasının sədri Vüqar Abbasov məşqçi, hakim və futbolçularla da görüş keçirib, onları maraqlandıran sualları cavablandırıb.

Həmçinin Futbol Federasiyası tərəfindən "Araz-Naxçıvan" Peşəkar Futbol Klubuna xüsusi olaraq avtobus ayrılıb.

**Ceyhun MƏMMƏDOV**

## Maarifləndirmə tədbiri olub



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən Qaz İstismar Xidmətində maarifləndirici tədbir təşkil olunub.

Tədbirdə Qaz İstismar Xidmətinin şöbə müdiri Elnur Heydərov çıxış edərək bildirib ki, dəm qazının yaratdığı təhlükələr və ondan qorunma üsulları barədə kütləvi informasiya vasitələrində maarifləndirici materialların yer almasına, müvafiq qurumların əməkdaşlarının vətəndaşlarla profilaktik tədbirlərin aparmasına baxmayaraq, payız-qış aylarında dəm qazından zəhərlənmə halları baş verir. Bu da onu göstərir ki, sakinlər hələ də qaz təsərrüfatından istifadə edərkən təhlükəsizlik qaydalarına tam əməl etmirlər.

Fövqəladə Hallar Nazirliyinin bölmə rəisi, daxili xidmət mayoru Hasil Məmmədov mövsüm ərzində aparılan qabaqlayıcı profilaktik tədbirlər, yaşayış sahələrində, xüsusilə də fərdi evlərdə və ictimai yaşayış binalarında qızdırıcı elektrik, qaz və suqızdırıcı cihazlarından düzgün istifadə qaydaları haqqında məlumat verib. Qeyd olunub ki, dəm qazının qoxusu olmadığı üçün şəxs heç nə hiss etmir. Yarım saat müddətində qanı zəhərləyir və ölüm baş verir. Ona görə də qızdırıcının növündən asılı olmayaraq, ventilyasiya, tüstü ötürücüsü kanal daim işlək vəziyyətdə olmalı və mütəmadi yoxlanılmalıdır.

Nazirliyin bölmə rəisi, mayor Oqtay Həsənov, sektor müdiri Aydın Quliyev tədbirdə çıxış ediblər.

Sonda qaz cihazlarından istifadə qaydaları ilə bağlı videoçarx və slayd nümayiş etdirilib.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***İnternet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınmaması hansı məsuliyyətə səbəb olur?***

**Cavab:** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 388-1-ci maddəsinə əsasən internet informasiya ehtiyatının və onun domen adının sahibi və ya informasiya-telekommunikasiya şəbəkəsinin istifadəçisi tərəfindən internet informasiya ehtiyatında yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınması ilə bağlı qanunvericiliyin tələblərinin pozulmasına, yəni:

-informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə yayılması qadağan edilən informasiyanın yerləşdirilməsinə yol verilməsinə (göstərilən əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda);

-internet informasiya ehtiyatında yerləşdirilmiş yayılması qadağan edilən informasiyanın götürülməsi ilə bağlı "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tədbirlərin görülməməsinə görə fiziki şəxslər beş yüz manatdan min manatadək, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq edilir, hüquqi şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

İnternet informasiya ehtiyatı "Yayılması qadağan edilən informasiyanın yerləşdirildiyi informasiya ehtiyatlarının Siyahısı"na daxil edildikdən dərhal sonra host provayder və internet provayderlər tərəfindən həmin internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılmamasına görə vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək, hüquqi şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 85